# GÜRCÜSTAN

SAYI 41-42 (13.411)
CÜMƏ 30 MAY 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


# MÜSTƏQİLLİK BAYRAMLARIMIZ MÜBARƏK !

## TBİLİSİDƏ MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ HƏRBİ PARAD KEÇİRİLİB

***26 may Gürcüstanın Müstəqillik Günü münasibətilə Tbilisidə hərbi parad keçirilib.***

Mərasimdə Prezident Mixeil Kavelaşvili, Baş nazir İrakli Kobaxidze, Parlamentin sədri Şalva Papuaşvili, eləcə də digər dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Bayram paradında bir sıra ölkələrin diplomatik nümayəndəliklərinin üzvləri iştirak ediblər.

Gürcüstan Müdafiə Qüvvələrinin ayrı - ayrı qoşun növlərinin iştirak etdiyi paradda ordunun arsenalındakı müxtəlif artilleriya sistemləri nümayiş olunub.



Hərbi xidmətə çağırışçılar Tbilisidə Azadlıq meydanında və ölkənin beş tarixi yerində and içiblər.

Qeyd edək ki, paytaxt Tbilisi ilə yanaşı, ölkənin 22 şəhərində bayram tədbirləri keçirilib.

Xatırladırıq ki, 1918-ci il mayın 26-da Noe Jordanianın başçılıq etdiyi Gürcüstan hökuməti dövlətin Rusiya imperiyasından müstəqilliyini elan edib. Gürcüstan Demokratik Respublikası 1921-ci ilin fevralına qədər mövcud olub, sonra isə Sovet Rusiyası tərəfindən işğal olunub. 70 ildən sonra, 1991-ci il aprelin 9-da Gürcüstan yenidən dövlət müstəqilliyini bərpa edib.

**Foto E.Şahvələdindir.**

## İLHAM ƏLİYEV GÜRCÜSTAN PREZİDENTİNİ TƏBRİK EDİB

***Prezident İlham Əliyev Gürcüstanın Prezidenti Mixeil Kavelaşviliyə təbrik məktubu ünvanlayıb.*** Məktubda deyilir:

*"Hörmətli cənab Prezident,*

*26 May - Müstəqillik Günü münasibətilə Sizə və dost Gürcüstan xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.*



*Azərbaycan və Gürcüstanı əsrlər boyu mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma şəraitində yaşayan xalqlarımızın iradəsindən qaynaqlanan möhkəm münasibətlər birləşdirir. Sağlam təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın bugünkü səviyyəsi bizi sevindirir.*

*Etibarlı strateji tərəfdaş olan ölkələrimizin energetika sahəsində əməkdaşlığı, birgə reallaşdırdığımız layihələr həm xalqlarımız, həm də daha geniş coğrafiya üçün xüsusi əhəmiyyət kəsb edərək, bu gün bir çox ölkənin enerji təhlükəsizliyinin əsasını təşkil edir.*

*Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi genişdir. Fəal siyasi dialoqumuz iqtisadi-ticari, enerji, nəqliyyat, sərmayə qoyuluşu, humanitar və digər sahələrdə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsi üçün yaxşı zəmin yaratmışdır.*

*Sizin bu yaxınlarda Azərbaycana rəsmi səfəriniz çərçivəsində səmimiyyət və qarşılıqlı anlaşma şəraitində keçən görüşümüzü və apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.*

*Əminəm ki, bir-birinə qırılmaz tellərlə bağlı olan ölkələrimizin və xalqlarımızın firavanlığı, regionumuzun təhlükəsizliyi və rifahı naminə Azərbaycan - Gürcüstan ənənəvi dostluğu və strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə dərinləşməyə və möhkəmlənməyə davam edəcəkdir.*

*Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".*

## GÜRCÜSTANIN YENİ DAXİLİ İŞLƏR NAZİRİ TƏYİN OLUNUB

***Baş nazir Qela Qeladzeni Gürcüstanın yeni Daxili İşlər Naziri vəzifəsinə təyin edib.***

Bu barədə Baş nazir İrakli Kobaxidze hökumət administrasiyasında keçirilən brifinqdə bildirib.



Qela Qeladze indiyə qədər Dövlət Təhlükəsizliyi Xidməti rəhbərinin müavini idi. Əvvəllər isə o, təhsil naziri və müdafiə nazirinin müavini kimi çalışıb.

Baş nazir Qeladzeni "yüksək ixtisaslı hüquqşünas" adlandırıb və vurğulayıb ki, o, müxtəlif dövlət strukturlarında – o cümlədən Daxili İşlər Nazirliyində, Prokurorluqda, Dövlət Mühafizə Xidmətində, Ədliyyə Nazirliyində, Təhsil, Elm və Gənclər Nazirliyində – məsul vəzifələrdə çalışıb.

Xatırladaq ki, Vaxtanq Qomelauri daxili işlər naziri vəzifəsindən istefa verdiyini açıqlayıb.

## BAŞ NAZİR PREZİDENT İLHAM ƏLİYEVİ TƏBRİK EDİB

***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycanın Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

Təbrikdə deyilir:



*"Sizi Azərbaycan Respublikasının Müstəqilliyi Günü münasibətilə Gürcüstan Hökuməti və gürcü xalqı adından səmimi qəlbdən təbrik edirəm.*

*28 May tarixi əhəmiyyət daşıyan bir gündür və Azərbaycan xalqının azadlıq arzusunun və müstəqilliyinin rəmzidir.*

*Dostumuz və strateji tərəfdaşımız Azərbaycanın uğurları və inkişafı bizi səmimi-qəlbdən sevindirir. Əminəm ki, Gürcüstan və Azərbaycan Respublikası arasında ümumi maraqlara, regionun inkişafına və sabitliyinə yönələn möhkəm tarixi dostluq və əməkdaşlıq gələcəkdə daha da möhkəmlənəcəkdir.*

*Müstəqilliyin bu əlamətdar günündə Sizə daim firavanlıq, tərəqqi və dövlət quruculuğu yolunda daha da böyük uğurlar arzulayıram.*

*Cənab Prezident, Sizə dərin ehtiramımı ifadə edir və ən xoş arzularımı çatdırıram".*

## TBİLİSİDƏ 28 MAY – AZƏRBAYCANIN MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB

***Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə Tbilisi şəhərində 28 May – Müstəqillik Günü münasibətilə tədbir təşkil olunub.*** Tədbirdə Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili, parlamentin deputatları, elm və ictimaiyyət nümayəndələri, din xadimləri, Gürcüstanda akkreditə olunmuş diplomatik korpusun üzv-ləri, eləcə də soydaşlarımız iştirak ediblər. Təntənəli mərasim Azərbaycan və Gürcüstanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Daha sonra Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev çıxış edərək bildirib ki, cari il Azərbaycan və Gürcüstan dövlətləri, eləcə də region üçün tarixi əhəmiyyət daşıyır. O qeyd edib ki, 1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də isə Azərbaycan öz dövlət müstəqilliyini elan edib. Səfir çıxışında Gürcüstan - Azərbaycan əlaqələrinə də toxunub və bildirib ki, Azərbaycanın həyata keçirdiyi kompleks inkişaf strategiyasında Gürcüstanla münasibətlər xüsusi yer tutur.



Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili də çıxış edərək Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edib. O, Azərbaycanla Gürcüstan arasında bütün sahələrdə münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıb, parlamentlərarası əməkdaşlığın bu əlaqələrin güclənməsindəki rolunu xüsusi qeyd edib.

## DÖVLƏT NAZİRİ TEA AXVLEDİANİ GÜRCÜSTANIN MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ ƏHALİNİ TƏBRİK EDİB



*"İlk növbədə, sizi Gürcüstanın Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm! 26 May vətənpərvərlik ruhu, sülh və azadlıq, ölkəmizin suverenliyinin möhkəmləndirilməsi ideyası ilə dolu bir gündür, çünki bu, ölkəmizin tarixi nailiyyətləri və milli dəyərləri ilə bağlıdır. Ona görə də bu gün biz öz gücü, dili ilə Vətənimizi, imanımızı müdafiə etmək üçün mübarizə aparan bütün insanları ehtiramla anırıq. Bu gün bizim çoxşaxəli mədəniyyətimiz və adət-ənənələrimiz, çoxəsrlik tariximiz, eləcə də özünəməxsus kimliyimiz ləyaqətimizi, tolerantlığımızı və alicənablığımızı təcəssüm etdirirsə, əgər ölkə öz daxili borcunu şərəflə yerinə yetirirsə, "xarici siyasətin bəyan edilmiş və layiqli məqsədləri xalqımızın rifahıdır". "İnanıram ki, bu yolla biz ölkəmizin dinc birləşməsinə nail ola biləcəyik və təbii ki, cəmiyyətimizin müvəqqəti olaraq ayrılmış abxaz və osetin üzvləri ilə qarşılıqlı hörmət və etimada əsaslanan vahid və güclü dövlətdə dinc yanaşı yaşayışı bərpa edə biləcəyik",* - deyə dövlət naziri Tea Axvlediani bildirib.

## GÜRCÜSTANIN MƏDƏNİYYƏT NAZİRİ: "AZƏRBAYCAN REGİONDA SÜLHÜN VƏ MEHRİBAN QONŞULUĞUN RƏMZİDİR"

***"Azərbaycan regionda təhlükəsizliyin, dostluğun, sülhün və mehriban qonşuluğun rəmzidir".***

Bunu Gürcüstanın mədəniyyət naziri Tinatin Ruxadze Bakıda Heydər Əliyev Mərkəzində Gürcüstanın Müstəqillik Günü münasibətilə keçirilən konsertdə təbrik nitqində deyib.

Nazir vurğulayıb ki, Gürcüstan Azərbaycanla möhkəm dostluq əlaqələri ilə fəxr edir: *"Etiraf etmək istəyirəm ki, Azərbaycanı çox sevirəm və bu gün burada olmaqdan şadam. Azərbaycan mənim sevimli ölkələrimdən biridir".*

Ruxadze onu da qeyd edib ki, bu gün Azərbaycan xalqının Ümummilli liderinin şərəfinə adlandırılan Heydər Əliyev Mərkəzində çıxış etmək onun üçün böyük şərəfdir: *"Bu, təkcə Gürcüstanın mədəniyyət naziri kimi deyil, həm də bir gürcü, xalqımın nümayəndəsi kimi mənim üçün şərəfdir".*



Nazir Azərbaycan ilə Gürcüstan arasında dostluq və mədəni əlaqələrin əsrlər boyu inkişaf etdiyini məmnunluqla bildirib. Ruxadze əlavə edib ki, Gürcüstan Mədəniyyət Nazirliyi azərbaycanlı həmkarları ilə bir çox birgə layihələrin həyata keçirilməsində maraqlıdır.

Sonda nazir Azərbaycanı 28 May Müstəqillik Günü münasibətilə Azərbaycan dilində təbrik edib: *"Yaşasın Azərbaycan və Gürcüstan dostluğu!"*

### TƏHSİL

## EMIS: 2025-2026-cı TƏDRİS İLİ ÜÇÜN 30300-dən ÇOX BİRİNCİ SİNİF ŞAGİRDİ QEYDİYYATDAN KEÇİB



***Təhsil İdarəetmə İnformasiya Sisteminin verdiyi məlumata görə, 3 saat ərzində ümumi qeydiyyatdan 10336 şagird qeydiyyatdan keçib. Ümumilikdə birinci sinif şagirdləri üçün 20 484 pulsuz yer ayrılıb.***

Nəzərinizə çatdırırıq ki, birinci sinif şagirdlərinin ümumi qeydiyyatı 17 iyun 2025-ci il tarixinədək davam edəcək. Bu müddət bitdikdən sonra dördüncü mərhələyə start veriləcək.

IV mərhələdə I, II və III mərhələlərdə qeydiyyatdan keçə bilməyən və ya qeydiyyatını dəyişmək istəyən şagirdlərin qeydiyyatı, qalan pulsuz yerlər və ya əvvəlki mərhələlərdə boşalmış yerlər üzrə aparılacaq. Bu mərhələ üzrə sənədlərin qeydiyyatı və təqdim edilməsi 2025-ci il iyunun 30-dan iyulun 15-dək nəzərdə tutulub. Dövlət məktəbi valideyn/qanuni nümayəndənin təqdim etdiyi zəruri sənədlər əsasında dördüncü mərhələdə şagirdin qeydiyyatını təmin edəcək.

## MƏKTƏBİ MEDALLA BİTİRMƏK ÜÇÜN HANSI QİYMƏTLƏR ALMALISINIZ?

***Onikinci sinif şagirdləri mayın 20-də təhsillərini başa vurublar. Tezliklə yekun qiymətləndirmə yazılacaq və məzunların bir qismi bunun əsasında medal alacaq.***

Medalların verilməsi təcrübəsi yeni olmasa da, bir çox tələbələr qızıl və gümüş medalların verilməsi prinsipi, hansı sinif qiymətlərinin nəzərə alınması və medal almaq üçün hansı qiymətlərə sahib olmaları ilə bağlı suallarla **etaloni.ge** saytına müraciət edirlər.

Təhsil Nazirliyindən **etaloni.ge**-yə verilən məlumata görə, qızıl və ya gümüş medal almaq üçün orta məktəb qiymətlərinə diqqət yetirilir və şagirdlərin balları aşağıdakı kimi hesablanır:

*"Ümumi qiymət balı yuvarlaqlaşdırılmadan 10 bal olan şagird qızıl medal və müvafiq sertifikat alır".*

*"Ümumi orta qiyməti 9,8 və ya 9,9 olan şagird isə gümüş medal və müvafiq sertifikat alır",* - deya nazirlikdən bildirilib.



## GÜRCÜSTANDA DƏMİR YOLUNUN MODERNLƏŞMƏSİ ÜZRƏ İŞLƏR TAMAMLANIB




***Gürcüstan Dəmir Yolları modernləşmə layihəsi çərçivəsində aparılan işlərin 99 faizinin artıq başa çatdığını açıqlayıb.***

Dəmir Yollarının baş direktoru Laşa Abaşidze layihənin yekun mərhələsini yerində yoxlayıb və podratçı şirkətin nümayəndələri ilə görüşərək, layihənin detallarını müzakirə edib.

Laşa Abaşidze Qvişxetidə yerləşən yeni dəmir yolu stansiyası və yarımstansiya, doqquzuncu tunel, istinad divarı, inşası davam edən yanğına qarşı mübarizə məntəqəsi, Moliti stansiyası və elektromərkəzləşdirmə məntəqəsinə baxış keçirib. Bildirilib ki, layihə üzrə işlərin böyük əksəriyyəti tamamlanıb.

Hazırda uzunluğu təxminən 9 kilometr olan doqquzuncu tuneldə yanğınsöndürmə sistemləri, videomüşahidə kameraları və tüstüyə qarşı ventilyasiya sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Laşa Abaşidze bildirib ki, modernləşdirmə layihəsinin tezliklə tamamlanması Gürcüstanın dəmir yolu və tranzit potensialının artırılmasında mühüm rol oynayacaq.

## Sitat guşəsi



"Biz yalnız o zaman qalib gələcəyik ki, vətəndaşlarımız Suxumi və Sxinvalidə də ümumi əmtəələrdən istifadə edə bilsinlər".

**Mixeil Kavelaşvili,**
**Gürcüstanın Prezidenti.**

"Son 35 ildə Gürcüstan dörd müharibə, doqquzillik suverenlik itkisi və avtoritar rejimdən keçib".



**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Gürcü xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm və səmimi qəlbdən Gürcüstanın güclü və xoşbəxt olmasını arzulayıram. Ukraynalılar həmişə Gürcüstanla isti emosional əlaqə hiss ediblər.

Xalqımıza dəstək olan hər kəsə təşəkkür edirik. Yaşasın müstəqil Gürcüstan! Yaşasın Ukrayna!"

**Volodimer Zelenski,**
**Ukraynanın Prezidenti.**

"Gürcüstanın Müstəqillik Günü münasibətilə gürcü xalqını təbrik edirəm! Avropa İttifaqı ölkəniz üçün demokratik, Avropa gələcəyi qurmaq üçün sizinlə möhkəm dayanır".



**Marta Kos,**
**Genişlənmə üzrə Avropa komissarı.**



"Gürcüstanın Müstəqillik Günündə cəsur xalqı təbrik edirəm...Yaşasın Gürcüstan"

**Maia Sandu,**
**Moldovanın Prezidenti.**

"ABŞ-nin məqsədi İranı Nüvə Silahlarının Yayılmamasına dair Saziş (NPT) çərçivəsində öz hüququndan məhrum etməkdirsə, İranın qənaətincə, bu proses nəticəyə çatmayacaq".



**İsmayıl Bəqai,**
**İran XİN-in sözçüsü.**



"Bizim strateji qərarımız sülh gündəminə sadiq qalmaqdır və mən ümidvaram ki, bugünkü hesabatın gedişində mən Ermənistanla Azərbaycan arasında sülhün nə dərəcədə yaxın olduğunu bizim beynəlxalq tərəfdaşlarımızın diqqətinə çatdırmağı və bunu daha nəzərəçarpan şəkildə etməyi bacardım".

**Nikol Paşinyan,**
**Ermənistanın baş naziri.**

## REGİON XƏBƏRLƏRİ

### Marneuli: GÜRCÜSTANIN MÜSTƏQİLLİK GÜNÜ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNUB



***Dövlət Naziri Aparatının təşkilatçılığı ilə musiqili və teatrlaşdırılmış tamaşalar, idman tədbirləri, müsabiqələr, uşaq tamaşaları, yerli ifaçıların, folklor və xoreoqrafiya ansamblların konsertləri keçirilib.*** Müstəqillik günü ilə bağlı tədbirin kulminasiya nöqtəsində, saat 17:10-da şəhərdə Gürcüstan himni təntənəli şəkildə səsləndirilib. Bələdiyyənin meri Kənan Ömərov toplaşanları bayram münasibətilə təbrik edib. Tamaşaları müşayiət etmək üçün havaya minlərlə helium şarı buraxılıb. Mayın 26-da qeyd olunan bayram qala-konsertlə başa çatıb, burada dövlət himni ilə yanaşı ansambl və qruplar: Qordela, Marqaliti, Mdzelvari, Qvevri, Tika Camburia və İrina Bairamaşvili, Leoni, Street Musicians və Forte tərəfindən tanış kompozisiyalar ifa olunub.

### Bolnisi: GÜRCÜSTANIN MÜSTƏQİLLİK GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

***Bolnisi bələdiyyəsinin Naxiduri kəndində yerləşən Naxiduri İcma Mərkəzində Gürcüstanın Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib.***



Tədbirdə Naxiduri İctimai Məktəbinin şagirdləri və müəllimləri iştirak ediblər.

Mərasim icma mərkəzinin direktoru, məktəbin gürcü dili müəlliməsi Çinarə Nəbiyevanın təşəbbüsü və təşkilatçılığı ilə baş tutub.

Çinarə Nəbiyeva tədbirdə çıxış edərək qeyd edib ki, bu cür tədbirlər şagirdlərin şəxsiyyət kimi formalaşmasında və milli dəyərlərə hörmət edən vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Onun sözlərinə görə, şagirdlər belə tədbirlər vasitəsilə öz dövlətlərinin tarixini daha dərindən mənimsəyir, vətənə, bayrağa və müstəqilliyə olan sevgiləri daha da güclənir.

Tədbir zamanı şagirdlər Gürcüstanın dövlət himnini oxuyub, vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər. Həmçinin Gürcüstanın müstəqillik tarixinə dair təqdimatlarla çıxış edərək iştirakçılara əlamətdar günün əhəmiyyətini bir daha xatırladıblar. Tədbir şagirdlərin milli ruh və vətən sevgisi ilə yoğrulmuş çıxışları ilə yekunlaşıb.

### Dmanisi: SON ZƏNG TƏDBİRİ KEÇİRİLİB



***Hər bir məktəblinin həyatında ömür boyu unudulmayan, yadda qalan hər an şirin xatirələrlə xatırlanacaq günlər vardır. O sevinc dolu şirin xatirələrlə yadda qalan günlərdən biri də „ SON ZƏNG " günüdür.***

Gələcəyə çalınan „ SON ZƏNG" uşaqlıq çağının son, gələcək müstəqil həyat məktəbinin isə ilk zəngidir!

Ölkəmizin hər yerində olduğu kimi, Dmanisi bələdiyyəsində də bu il may ayının 20-də son zəng tədbiri keçirildi. Son zəng tədbiri bələdiyyənin Kvemo Orozman ictimai məktəbində də böyük coşqu və təmtəraqla qeyd olundu.

Tədbirdə, məktəbin direktoru, Gürcüstanın Əməkdar müəllimi İslam Məmmədov, müəllimlərdən Nərgiz Bluaşvili, Leyla İsgəndərova, Zemfira İsgəndərova, Bəsti Süleymanova, Lamiyə Əsədova, Abid Qarayev, Şahlar Məmmədov, Bəhruz Bayramov, Əhməd İsmayılov, Vahid Əzizov və s. çıxış edərək məzunlara bu gündən başlayan müstəqil həyatlarında uğurlar diləmişlər. Məzunlardan Funda Süleymanova, Orxan Nəsibov, Oruc Abbasov Elşən və Elşad Mustafayevlər, İsa Musayev, Amil Hümbətov, Ramiz Şərifov, Murad Niyazəliyev və tədbirin aparıcısı, məktəb şagird özünüidarə orqanının sədri, dərs əlaçısı Damla Məmmədova və digər şagirdlər öz çıxışlarında müəllimlərə, məktəb rəhbərliyinə zəhmətlərinə, diqqət və qayğılarına görə öz minnətdarlıqlarını bildirdilər.

Tədbirdə ölkəmizin Baş naziri İrakli Kobaxidzenin Gürcüstanin Elm, Təhsil və Gənclər naziri Aleksandre Tsuladzenin ölkə məzunlarına, həmçinin Dmanisi bələdiyyəsinin meri Koba Muradaşvilinin və Dmanisi Təhsil Ehtiyat Mərkəzinin rəisi Maya Xmaladzenin bələdiyyə məktəblərinin 12 – ci sinif məzunlarına təbrikləri tədbir iştirakçılarının diqqətinə çatdırıldı,

Tədbir zamanı bu il sentyabr ayında birinci sinifdə oxuyacaq uşaqlara ənənəvi olaraq məzunlar tərəfindən hədiyyələr verildi. Tədbirdə gürcü və Azərbaycan dillərində şeirlər, mahnılar, səsləndirildi, müxtəlif oyunlər, əyləncəli nömrələr, rəqslər və s. ifa olundu.

Builki son zəng tədbirinin özəlliyi ondan ibarət oldu ki, məktəbin gürcü dili fənni üzrə Baş müəllimi Leyla İsgəndərovanin 70 illik yubileyi, pedaqoji fəaliyyətinin 50 illiyi məktəb müdiriyyəti tərəfindən tədbir zamanı fərqli şəkildə qeyd olundu.

**Lamiyə ƏSƏDOVA,**
**Dmanisi bələdiyyəsi, Kvemo Orozman ictimai məktəbinin riyaziyyat fənni üzrə Baş müəllimi.**

## BEYNƏLXALQ HƏYAT

### ABŞ-də İSRAİLLİ DİPLOMATLARIN QƏTLİNDƏ ŞÜBHƏLİ BİLİNƏN ŞƏXS BARƏSİNDƏ EDAM QƏRARI ÇIXARILA BİLƏR



***Vaşinqtonda İsrail səfirliyinin iki əməkdaşının qətlində şübhəli bilinən şəxs ölümə məhkum oluna bilər.***

Bu barədə "Fox News" telekanalı Federal Təhqiqat Bürosunun (FTB) sənədlərinə istinadən məlumat yayıb.

Bildirilib ki, şübhəli Elias Rodriqesə xarici rəsmi şəxslərin qətlində ittiham irəli sürülüb ki, bu da ölüm cəzası ilə cəzalandırılır.

Qeyd edək ki, Vaşinqtonda Yəhudi Muzeyinin qarşısında baş verən atışma nəticəsində İsrail səfirliyinin iki əməkdaşı həlak olub. Onlar muzeydə keçirilən tədbiri tərk edərkən şübhəli şəxs atəş açıb. Atəş açan şəxs saxlanılıb. Həbs zamanı saxlanılan şəxs *"Fələstinə azadlıq!"* şüarını qışqırıb.

Məlumata görə, öldürülənlərdən biri İsrail vətəndaşı Yaron Lişçinski, o biri isə Sara Milqrim səfirlik işçisi olub.

### UKRAYNA VƏ RUSİYA ARASINDA ƏSİR MÜBADİLƏSİNİN ÜÇÜNCÜ MƏRHƏLƏSİ BAŞ TUTUB

***Ukrayna ilə Rusiya arasında 1000-ə 1000 məhbus mübadiləsinin üçüncü mərhələsi baş tutub.***



Bu barədə Ukrayna prezidenti Vladimir Zelenski açıqlayıb.

Onun sözlərinə görə, daha 303 ukraynalı əsirlikdən qayıdıb.

*"Ukrayna və Rusiya arasında 1000-ə 1000 məhbus mübadiləsinin üçüncü mərhələsi İstanbulda danışıqlar zamanı tərəflərin razılaşdırdığı kimi baş tutub"*, -deyə Zelenski qeyd edib.

Bu, İstanbulda əldə olunan razılaşmalar çərçivəsində Ukrayna ilə Rusiya arasında əsir mübadiləsinin son mərhələsi olub və nəticədə 1000 ukraynalı evlərinə qayıdıb.

Xatırladaq ki, Rusiya və Ukrayna arasında genişmiqyaslı məhbus mübadiləsinin birinci mərhələsi cümə günü baş tutub. Tərəflər 390 nəfər, o cümlədən 270 hərbi qulluqçu və 120 mülki şəxs mübadiləsi aparıblar. Dünən mübadilənin ikinci mərhələsi baş tutub və bu müddət ərzində Ukrayna 307 nəfəri əsirlikdən geri qaytarıb.

### TRAMPDAN ZELENSKİYƏ SƏRT TƏNQİD: "AĞZINDAN ÇIXAN HƏR SÖZ PROBLEMLİDİR"



***ABŞ prezidenti Donald Tramp Ukrayna lideri Volodimir Zelenskinin bəyanatlarını sərt şəkildə tənqid edib.*** O, "Truth Social" platformasında yazıb ki, Zelenskinin çıxışları Ukraynaya xidmət etmir və onun dedikləri daim problemlərə səbəb olur.

Tramp qeyd edib ki, əgər o prezident olsaydı, Rusiya - Ukrayna müharibəsi heç vaxt başlamazdı:

***"Bu müharibə mənim deyil Zelenskinin, Putinin və Baydenin müharibəsidir".***

Ağ Evdə jurnalistlərlə söhbətində isə Tramp Rusiyanın Ukraynadakı hücumlarını qəddar adlandıraraq, bu gedişatın Rusiyanın özünə də zərər verə biləcəyini vurğulayıb. O, Vladimir Putini çoxdan tanıdığını deyərək, ***"O, dəyişib və bu, xoşuma gəlmir. Sadəcə dəlidir, günahsız insanları öldürür"***, - deyə bildirib.

Tramp sonda Rusiyaya qarşı daha sərt sanksiyaların tətbiqini nəzərdən keçirdiyini də əlavə edib.

### MARSDAKI QARA CİZGİLƏR SU İLƏ DEYİL, TOZ VƏ KÜLƏKLƏ BAĞLIDIR – ALİMLƏRDƏN YENİ AÇIQLAMA

***Mars səthində müşahidə olunan və illərdir duzlu maye suyun izləri kimi qəbul edilən qara yamac cizgiləri ilə bağlı elmi yanaşmalar dəyişməkdədir.*** Son onillikdə aparılan geniş araşdırmalar bu sirli izlərin su ilə əlaqəsini şübhə altına alıb.

Yeni elmi nəticələrə əsasən, bu cizgilər "təkrarlanan yamac cizgiləri" adlandırılan müvəqqəti formalaşmalardır və onların yaranması maye suyun təsiri ilə deyil, Marsın səthindəki tozların küləklə hərəkəti ilə bağlıdır.

Alimlər yarım milyondan çox belə cizgini təhlil edərək, nə temperatur dəyişikliyi, nə də rütubət göstəricilərinin bu izlərlə əlaqəli olduğunu müəyyən ediblər. Tədqiqatçılar hesab edirlər ki, bu cizgilər Marsın incə atmosferində küləyin sürətinin dəyişməsi və səthə toplanan tozun sürüşməsi nəticəsində əmələ gəlir.

Beləliklə, əvvəllər "Marsda su ola bilər" ehtimalını gücləndirən bu izlərin əslində geoloji və iqlim faktorlarının təsiri ilə formalaşdığı düşünülür.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HEYRƏTLƏNMƏ** "Heyrətlənmək"-dən

**HEYRƏTLƏNMƏK** *f.* Heyrət etmək, təəccüblənmək, təəccüb etmək.

*Bu heyrətlər donuqları heyrətləndirər,*
*Bu daşların görünməmiş vulkanı başlar.*

M. Araz.

**HEYRƏTLİ** *sif.* Heyrət doğuran, gözlənilməz, qəribə, heyrətə salan; təəccüblü, heyrətamiz, heyrətəngiz.

[Dərviş] *heyrətli və kəskin bir nəzərlə baxınıb durur.*

H. Cavid.

**HEYSİYYƏT** *is. [ər.]* Mənlik, şan, şərəf, qürur; mənlik hissi.

*Eşqin atəşində o yandırmadı,*
*Böyük mənliyini, heysiyyətini.*

B. Vahabzadə.

**HEYSİYYƏTLİ** *sif.* Heysiyyəti, mənliyi olan; mənliyini qoruyub saxlayan, şərəfli.

[Qızı Turxan bəyə:] *Atadan-babadan sizin namuslu, heysiyyətli bir xanədan olduğunuzu bütün vilayət bilir.*

H. Cavid.

**HEYSİYYƏTSİZ** *sif.* Heysiyyəti, mənliyi olmayan; şərəfsiz, alçaq.

[Fərman] *Mələyin ... heysiyyətsiz bir adam olduğunu düşündü.*

M. İbrahimov.

**HEYSİZ** *sif.* Gücsüz, qüvvəsiz, taqətsiz, heyi olmayan. *Heysiz qoca.*

**HEYVAN** *is. [ ər. ]* 1. İnsanı çıxmaqla hər cür canlı məxluq.

[Qaçay:] *Atalar deyib ki, heyvan iyləşə-iyləşə, insan dilləşə-dilləşə yaxınlaşar.*

Ə. Vəliyev.

// Bitkilərdən başqa hər cür canlı varlıq. *Vəhşi heyvan. Onurğasız heyvanlar.*

2. Əhliləşdirilmiş dördayaqlı canlı məxluq. *Ev heyvanları. Qoşqu heyvanları.*

[Qara Kərəmoğlu:] *Bir dəfə bazar ayağında bir dəstə adamın içində heyvanlardan söhbət düşür, biri deyir, camış yaxşı heyvandır, qatığı çox dadlı olur...*

M. İbrahimov.

3. Yabanı, vəhşi canlı məxluq. *Yırtıcı heyvanlar. Meşə heyvanı. Xəzlik heyvan.*

[Sitarə:] *Meşə qaranlıq, özüm tək, vəhşi heyvanlar...*

C. Cabbarlı.

4. *məc.* Adətən yazıq, fağır, zavallı, aciz uşaq haqqında deyilir.

[Məhəmmədağa:] *Uşaq sizindir, onun xeyrini siz görəcəksiniz, əbəs yerə heyvan uşağı bədbəxt eləməyiniz, qoyunuz gəlib oxusun.*

N. Nərimanov.

5. *məc.* Qanmaz, anlamaz, kobud, yaxud ağılsız, dərrakəsiz adam haqqında. *Heyvanın biridir.*

// Bəzən söyüş məqamında işlənir.

[Məşədi İbad:] *Görünür ki, heyvan balası dəllək hənanı pis yaxıbdır.*

Ü. Hacıbəyov.

**HEYVANAT** *is. [ər.* "heyvan" söz. cəmi] Heyvanlar, heyvanlar aləmi.

*Ta ki axırda bir az qovzanıb insan*
*olacaq,*
*Azı insan da olursa, çoxu heyvan olacaq.*

Şəhriyar.

**HEYVANCASINA** *sif. və zərf* Heyvan kimi, vəhşicəsinə, kobudcasına.

**HEYVANCIQ** *is.* Kiçik heyvan, balaca heyvan, yazıq heyvan, heyvancığaz.

*Həsrətlərinə qovuşmuş heyvancıqlar ayaqlarını bükərək quyruqlarını oynada-oynada analarının məmələrini əmirdilər.*

A. Şaiq.

**HEYVANDAR** *is. [ər.* heyvan və *fars.* ...dar]

1. Heyvandarlıq mütəxəssisi.

2. Mal - qara saxlamaqla, yetişdirməklə, maldarlıqla məşğul olan təsərrüfat, kəndli. *Gənc heyvandarların respublika toplanışı.*

//Sif. mənasında. *Heyvandar təsərrüfatlar. Heyvandar kəndlilər.*

**HEYVƏRƏ** *sif. və is.* 1. Kobud, qanmaz, ləyaqətsiz, tərbiyəsiz, ədəbsiz, zırrama, ağzıyava, ağzıpozuq. *Heyvərə adam. Heyvərənin biridir, dindirməsən yaxşıdır.*

*Qışqırdı bir qədər, zəhərdən acı,*
*Qızışdı getdikcə heyvərə hacı.*

H. K. Sanılı.

// Bəzən söyüş kimi işlədilir.

2. Yekə, zorba, nataraz, yöndəmsiz. *Bozdar ... qocalmış, gözlərinə pərdə gəlmiş heyvərə bir köpəkdir.*

S. S. Axundov.

3. *zərf* Avara-avara, boş-boş, avara-sərgərdan.

*Dəxi ol sərvi-qədin kuyinə cənnət*
*deyibən,*
*Gəzmərəm küçələri heyvərə bundan*
*sonra.*

S. Ə. Şirvani.

**HƏB** *is. [ər.]* Toz dərmandan hazırlanmış kürəcik. *Həb atmaq. Acı həb.*

*Həkim bir neçə həb, beş də iynə dərmanı verdi.*

Ə. Vəliyev.

□ **Yastı həb** – dairə şəklində həb; tablet.

**HƏBƏŞ** *is.* Efiopiyanın əsas əhalisini təşkil edən xalq və bu xalqa mənsub adamın keçmiş adı; efiopiyalı.

*Zavallı, silahsız və kimsəsiz həbəşlərin boynunda faşist cəlladı öz qılıncının kəsərini yoxlayırdı.*

M. İbrahimov.

**HƏBİB** *is. [ər.] klas.* Sevgili, dost.

*Tutaram yarın qiyamətdə, həbibim, damənin.*

Füzuli.

**HƏCC** *is. [ər.]* Müsəlmanlarda: zilhiccə ayında Məkkədə ziyarət mərasimini yerinə yetirmə.

*Bəhs ilə həccə gedən yorulub yolda qalar.*

(Atalar sözü).

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### ბოლო ზარი (Bolo zari) – Son zəng

**ბოლო ზარი – სენტიმენტალური მომენტია თითოეული მოსწავლის ცხოვრებაში.** (Bolo zari – sentimentaluri momentia titoeuli mostsavlis tsxovrebaşi.) **– Son zəng – hər bir şagirdin həyatında duyğusal bir andır.**

**ამ დღეს სკოლას ვემშვიდობებით, სადაც ბავშვობიდან მოყოლებული ვიზრდებოდით.** (Am dğes skolas vemşvidobebit, sadats bavşvobidan moğolebuli vizrdebodit.) **– Bu gün uşaqlıqdan boya-başa çatdığımız məktəblə vidalaşırıq.**

**ბოლო ზარი არის დაპირება, რომ მომავალს შიშით კი არა, იმედით შევხვდებით.** (Bolo zari aris dapireba, rom momavals şişit ki ara, imedit şevxvdebit.) **– Son zəng – gələcəyə qorxu ilə deyil, ümidlə baxacağımıza verilən sözdür.**

**ეს დღე მოზარდების ცხოვრებაში ახალი ეტაპის დასაწყისია.** (Es dğe mozardebis tsxovrebaşi axali etapis dasatsğisia.) **– Bu gün gənclərin həyatında yeni mərhələnin başlanğıcıdır.**

**ეს არ არის მხოლოდ განშორება კლასელებთან და მასწავლებლებთან, ეს ახალი ცხოვრების დასაწყისია.** (Es ar aris mxolod qanşoreba klaselebtan da mastsavleblebtan, es axali tsxovrebis dasatsğisia.) **– Bu, təkcə sinif yoldaşları və müəllimlərlə vidalaşma deyil, bu, yeni bir həyatın başlanğıcıdır.**

**ბოლო ზარი გვახსენებს, რამდენად სწრაფად გადის დრო და რამდენი რამ ვისწავლეთ.** (Bolo zari qvaxsenebs, ramdenad stsrapad qadis dro da ramdeni ram vistsavlet.) **– Son zəng bizə vaxtın necə sürətlə keçdiyini və nələr öyrəndiyimizi xatırladır.**

**მშობლები ამაყობენ, მასწავლებლები კი – ცოტათი ნაღვლიანები, მაგრამ ბედნიერნი არიან.** (Mşoblebi amağoben, mastsavleblebi ki – tsotati nağvlianebi, maqram bednierni arian.) **– Valideynlər fəxr edirlər, müəllimlər isə bir az kədərli, amma xoşbəxtdirlər.**

**ეს დღე გვასწავლის მადლიერებას, პასუხისმგებლობას და მიზნებისკენ სვლას.** (Es dğe qvastsavlis madlierebas, pasuxismqeblobas da miznebisken svlas.) **– Bu gün bizə minnətdarlığı, məsuliyyəti və məqsədə doğru irəliləməyi öyrədir.**

**ბოლო ზარი დასრულდა, მაგრამ განათლების გზა ახლა იწყება.** (Bolo zari dasrulda, maqram qanatlebis qza axla itsğeba.) **– Son zəng bitdi, amma təhsilə gedən yol indi başlayır.**

**გილოცავთ, ბავშვებო ! წინ გელით ახალი გზები, ახალი თავგადასავლები და დიდი გამარჯვებები!** (Gilotsavt, bavşvebo! Tsin qelit axali qzebi, axali tavqadasavlebi da didi qamarjvebebi!) **– Təbrik edirik, uşaqlar! Sizi qarşınızda yeni yollar, yeni macəralar və böyük qələbələr gözləyir!**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

19 may 2025-ci il “SAKARTVELOS RESPUBLİKA”

# ჩემგან საუკეთესო საზი გამოითლება...

***Gürcüstanın nüfuzlu mərkəzi mətbuat orqanı olan "Sakartvelos Respublika" qəzetinin 19 may 2025-ci tarixli 71-ci sayının 9-cu səhifəsində tanınmış şair-publisist həmyerlimiz İbrahimxəlil (İbrahimxəlil Məhəmmədəli oğlu Tamıyevin) yaradıcılığından bəzi nümunələr daha bir ünlü şair-publisist - yazıçı Gürcüstan kökənli İmir Məmmədlinin gürcü dilinə tərcüməsində tələbkar gürcü oxucusuna təqdim olunub. Həmin tərcümələri, olduğu kimi diqqətinizə çatdırırıq.***



## იბრაჰიმხალილი

**იბრაჰიმხალილი (იბრაჰიმხალილ მუჰამედალი ოღლი თამიევი) ბოლნისის რაიონის სოფელ მუშევანში დაიბადა. დღეს ის ყაზრეთში ცხოვრობს.**

**იბრაჰიმხალილი 10 წიგნის ავტორია. ამავე დროს, დიდი ქართველი პოეტის გალაკტიონ ტაბიძის შესახებ შესანიშნავი წიგნი აქვს დაწერილი.**

**დღეს გთავაზობთ იბრაჰიმხალილის ლექსებს.**

### Qalaktion Tabidzenin xatirəsinə
### გალაკტიონ ტაბიძისადმი

ნეტავ ერთხელ, ნეტავ ერთხელ
ვაკე გახდეს ქვეყნის ცენტრი.
და მოგადგეს უცებ მერი
თეთრ ფატაში, თეთრი ეტლით.
ისე, როგორც მამულს შვენის
შეერიოს სევდას ლხინი.
ისე კი არ დაიხარჯოს,
სამარემდე მიგყვეს ჟინი!

ვაკე გახდეს ქვეყნის ცენტრი...
თქვან, ეს ვარდი ვისიაო.
და მწუხარე შემოდგომით
მოგძახოდნენ, – „გიჟიაო“.
შეგეყაროს ყველგან მერი,
ვით ღვთაება და ვით ქალი.
დასაფერფლად მოგეკიდოს
მისი ფატის თეთრი ალი.

### Qan yerinə mürəkkəb
### მელანი უჩქეფთ სისხლის მაგიერ

*გალაკტიონ ტაბიძისადმი*

ლექსებიც ეგრე იბადებიან,
იფურჩქნებიან როგორც კვირტები.
მელანი უჩქეფთ სისხლის მაგიერ,
ისე ჩნდებიან, გაგიკვირდება.

მთასავით დარდი აგიყვანს მთაზე,
აღმართზე ფიქრებს ვზიდავთ
ყველანი.
ექიმი სისხლის ანალიზს მიიღებს,
ხედავს ძარღვებში მიდუღს მელანი!

როგორც ღვიძლი ძმა მოგესალბუნა, –
კაცი კაცია, არც ქვა, არც ხეა.
შენც პოეტი ხარ, მთაო – ძმობილო?
მკერდზე შენც მელნის ლაქა გაცხია!

...ძარღვივით მოსჩანს მთაზე ბილიკი,
სხვა მზეს, მთავ, შენი მზე და დარი სჯობს.
...ოდეს სამყარო მელნის ზღვა იყო,
პოეტი მელნის ზღვაში დაიხრჩო!

### Anamın pensiya kağızı
### დედაჩემის პენსია

შემოდგომაა, ანცი ქარები
ყვითელი ფანქრით ხატავენ ფოთლებს.
როგორც თვის ბოლოს ბებოს პენსიას,
შვილიშვილები ხვეტავენ ფოთლებს.

ალბათ მორჩება ეს ფოთოლცვენა,
ყვითელი ფერი ლექსს შთამაგონებს...
დედის ხსოვნა და მისი პენსია
მე სევდის მომგვრელ ფოთლებს
მაგონებს.

...დედის ჭაღარა ფაიზის სურნელს
აფრქვევდა,
მინდა ვუძღვნა ოდები.
დედიკო გაჰყვა წეროთა გუნდს და
რა ვქნა, წეროებს დაველოდები...

### Xeyirli səhərlər
### დილა მშვიდობისა

იშლება დილა, ვითარცა წიგნი...
თითქოს პოეტმაც სხივი მოჰფინა.
წიგნი ჯვარცმული, წიგნი ტანჯული,
„აშუგ ყარიბის“ წიგნი ყოფილა!

ზოგჯერ სარკის წინ დგახარ და ასე
დალალს ივარცხნი, ჰორიზონტს
წეწავ...
დილა წიგნივით იშლება, ანუ
დღეს შენ წიგნიდან გამოიხედავ! –

ო, ქალბატონო, დგება ქალაქი,
იცილებს საბანს, ვით ღრუბლის ფთილას.
მე – სიკეთის და მშვოდობის წიგნი,
შენ მშვიდობიანს გისურვებ დილას!...

### Payız almasına rapsodiya
### რაფსოდია შემოდგომის ვაშლს

ან მეფის, ან და ვეზირის ბაღი
გახლდათ, თრთვილიც და
თოვლიც ეფინა.
მისი ნაყოფი ჰკურნავდა სნეულს,
ვაშლის ბაღში არ ვყოფილვარ წინათ.

შუაღამეზე მოვწყვიტე ვაშლი –
შემოენახა მებაღეს თურმე.
მე ჩასაკბეჩად ვერ გავიმეტე,
ლოყებღაჟღაჟა ელოდა სტუმრებს!

დევებმა დასცეს მაშინ ყიჟინა,
აურზაურის დამიგეს მახე.
მე გალოაში შემაგდეს მყისვე,
მას ტომარაში გადუძახეს.
მაშინ დამთოვა, და ასე დარჩა
ვაშლი პირმოკრულ დიდ ტომარაში.
სავსე ტომრები და ხურჯინები
მოულოდნელად აყვავდა მაშინ!

ჰარესაც ვაშლის სურნელი უდის,
ვაშლის სურნელი ავსებს გალიას!
ფიქრებში ცვივა ფოთლეიანად,-
ქალის – ვაშლია, ვაშლიk – ქალია!..

* * *

### „ნეტავი მოვკვდე შემოდგომაზე“
### აშუგ ალესკერი

უჩუმრად მოვკვდი შემოდგომაზე,
სხვამ ზაფხულამდე იმხიარულოს.
მე მივიცვალე შემოდგომაზე,
ნუ, ნუ დამადგამთ ზედ მარმარილოს.

ეჰ, მესაფლავეც მოხუცი მერგო,
გადაუფრინა წერომ ტერასებს...
პოეტებმაღა უწყიან მხოლოდ,
მე გავიკვირტე სახრჩობელაზე.

გადამეწურა მკვდრეთით აღდგომის
იმედი. არ თქვა ბევრი უნდაო.
სახრჩობელაზე დამასკდა კვირტი,
ხალხს კი ეგონა, გაზაფხულდაო!..

* * *

ჩემგან საუკეთესო
საზი გამოითლება.
ის, რაც მგრძნობიარეა
კარგ მასალად ითვლება.

ტკივილსა ვგრძნობ საზივით,
გაგიმართლებთ იმედებს.
გამომთალეთ საზივით,
თუთის ხეს ნუ იმეტებთ.

ოსტატი თუ იმარჯვებს,
კარგი საზი ვიქნები.
გამომთალეთ, გამრანდეთ,
საზად გარდავიქმნევი.

**აზერბაიჯანულიდან თარგმნა**
**იმირ მამედლიმ**

MÜSABİQƏ

# DMANİSİDƏ AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏR ARASINDA İNŞA MÜSABİQƏSİ KEÇİRİLİB



Dmanisi bələdiyyəsində fəaliyyət göstərən azərbaycandilli məktəblərin yuxarı sinif şagirdləri arasında görkəmli türkoloq, tanınmış dilçi - alim və ictimai xadim, mərhum akademik Mədəd Çobanovun əziz xatirəsinə həsr olunmuş "Ana dilimiz – varlığımızdır!" mövzusunda II İnşa yazı müsabiqəsinin ilk turu keçirilib.

Müsabiqəyə 2025-ci ilin mart ayında start verilib və tədbir "Cəmiyyətin Təhsili və İnkişafı üçün Vətəndaş Birliyi"nin təşkilatçılığı ilə həyata keçirilib.

Mayın 23-də Dmanisi Tədris Mərkəzində müsabiqəyə həsr olunmuş təntənəli tədbir baş tutub.

Tədbir mərhum akademik Mədəd Çobanovun xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra birliyin sədri Kamran Xıdırov açılış nitqi ilə çıxış edərək akademikin elmi, pedaqoji və ictimai fəaliyyətindən danışıb. O, müsabiqənin əsas məqsədinin şagirdlərdə ana dilinə olan sevgini artırmaq və Azərbaycan dilini daha yaxşı öyrənməyə həvəsləndirmək olduğunu bildirib.

K. Xıdırov qeyd edib ki, bu il Dmanisidə ilk dəfə keçirilən müsabiqədə bələdiyyənin müxtəlif məktəblərindən ümumilikdə 75 şagird iştirak edib. O, Yırğançay, Qarabulaq, Hamamlı, Səfərli, Yuxarı Oruzman və Dmanisi 2 nömrəli məktəblərinin şagirdlərinin xüsusi fəallıq göstərdiyini vurğulayıb. Müsabiqənin ikinci mərhələsinin Marneulidə davam ediləcəyi və 25 şagirdin növbəti tura vəsiqə qazandığı bildirilib.

Tədbirdə çıxış edən Gürcüstan Parlamentinin sabiq deputatı Ruslan Hacıyev, Dmanisi Resurs Mərkəzinin direktoru Maia Xmaladze və digər natiqlər ana dilinin öyrənilməsinin əhəmiyyətindən danışıblar. Onlar akademik Mədəd Çobanovun dilimizin qorunması və təbliği sahəsində gördüyü işləri yüksək qiymətləndiriblər.

Təşkilat komitəsinin sədri, professor Mahmud Kamaloğlu isə şagirdlərin müsabiqə çərçivəsində yazdığı inşaların mövzularından bəhs edərək, onların ana dilimizə olan maraq və sevgisini təqdirəlayiq hesab edib. "Ana dilimiz – varlığımızdır!", "Türk ədəbi dilləri arasında Azərbaycan dilinin yeri", "Akademik Mədəd Çobanovun elmi yaradıcılığı və pedaqoji fəaliyyəti" kimi mövzularda yazılmış inşaların məzmunu iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbirdə həmçinin Hamamlı məktəbinin müəllimi



Təhminə Muradova və digər iştirakçılar akademikin Azərbaycan dili üzrə yazdığı dərslik və elmi əsərlərin əhəmiyyətindən söz açıblar.

Sonda tədbir iştirakçılarına akademik Mədəd Çobanovun müəllifi olduğu və ona həsr edilən kitablar hədiyyə olunub, xatirə şəkilləri çəkilib.

*Əvvəli 2 may tarixli sayımızda*

# İYUN



—Tut, gilas yetişib, Qoqia oğlan!..- Yuxarıdan qoz ağacının budaqları arasında gizlənən sarıköynək səslənir...

—Tese, kafe! Calalıqdan quğu quşu bas avazında ona deyir. Özü başqasının hesabında olan başqasının işləməsinə paxıllıq edir.

—Kvit-kiro, kvit-kiro!—Bıldırçın höhkür-höhkür ağlayır və ən sadə yuvasını da ki, qurmuşdur.

—Saman yandı, saman yandı!..- Dağ quyruqsallayanı tıq - tıq tıqqıldayır.

Qaratoyuq civildəyir, bülbül cəh-cəh vurur, yuxarıda səmada torağay cikkildəyir, qırğı-çalağanlar qarıldayır...

Bataqlıq yaşıllığa bürünür. Nazik qamış və su qamışı qamətini düzəldib. Cığ, alaqotu zirvədə bar verib. Su qamışlığında su süsəninin sarı gülləri görünür. Suyun səthində isə ağ suzanbağının qəşəng böyük gülləri açıb. Onun yanında qovuqca utancaqcasına boylanır. Gölün kənarlarında isə qırxbuğumun ağ və bənövşə rənginə çalan sünbülləri baş qaldırıb.

Hamı sevinir... Ya da necə sevinməsin? Hər bir canlıya həyatın güclü şirəsi hopub. Taxıl əgər aranda "ürəyini qoydusa", dağda da üzərə çıxdı, dirçəldi, uzun yaşıl sünbül yuxarı yarpaqlarından başını uca tutub və bəzən mehin azca əsməsi ilə zövqverici zəminin səthindən ötüb keçir, elə düşünərsən ki, dalğa dalğanın arxasınca gəlir. Və ya niyə də yox? Mayda səmanın şehi əksilmədi, torpaq su ilə doldu, buğda cücərtisi bolluca mənimsədi.

Sanki hər yerdə, çəmənliklərdə, ot dizə çıxıb, mavi dağ nanəsi, ağ quşqonmaz, mavi yonca, ağ və bənövşə rənginə çalan ağ su zanbağı (xaşa), göy noxud zövqverici şəkildə çiçəklənir. Cır yulaf, koleriya, çoban toppuzu, qırtıc, çəmən pişikquyruğu xışıldayır, mehin azca əsməsinə yırğalanır. Dağda da çəmən boy göstərdi, çiçəkləndi, gözəlləşdi. Ot torpağın və səmanın şirəsi ilə doludur. Tezliklə, çox tezliklə taxıllar dən-dən olacaq və ya artıq dən-dən olmuş, kərənti və biçin maşını artıq aranın biçənəcəklərinə yollanıb. Çöl və düzənlikdə məhsuldar otun layları uzun zolaq kimi uzanır. Ala-bəzək donlu qızlar, ala-bəzək koynəkli oğlanlar dırmıqlarla, yabalarla biçilən otun üstünə düşürlər və onların bulunlaşdırılması, dırmıqlanması, daşınması, tayaların vurulması başlayır. Tədrisi başa vuran gənc naturalistlər həvəslə işə girişirlər, otu bulunlayırlar, dırmıqlayırlar. Orda isə, zəmi biçilən yerdə sünbülləri də toplayırlar. Kolxozçulara qarğıdalının toxalanmasında və dibinin doldurulmasında kömək edirlər. Qiymətli və gözəl bitkiləri köklü götürürlər, herbari düzəldirlər. Məktəblərdən birinə söz veriblər ki, onların kənd bitkilərinin herbarisini düzəltsinlər və göndərsinlər. Onlar keçən il bu kəndin gənc naturalistlərindən müalicə bitkilərini aldılar. Onlar da axı, borclu qalmazlar ki? Məktəbdən uzağa getməyən naturalistlər məktəb sahəsinə göz-qulaq olurlar. Bunu müşahidə dəftərinə yazırlar və məktəbə qayıdanda başqaları ilə bölüşürlər.

Tut, gilas, faraş şaftalı yetişdi. Hələ hər yerdə qar ərimәyib. Qoyun və düzənliyi keçmiş digər heyvan hələ uca dağların meşələrinin ətəklərində və çəmənliklərində dolaşırlar. Burda doğrudan da ilkbahardır. Qar çiçəyi, dağ danaqıranı, min cür şaxta gülü gül açır. Rodendronun qönçələri pardaqlanıb, ağcaqayının şirin şirəsi bolluca gəlir. Uşaqlar ağac qabığından boru düzəldiblər. Öskürək otunun yarpağında yığırlar və ləzzətlə içirlər. Xaçgülü və şişqulağın saplağı başını çıxarıb.Toplayırlar, soyurlar və ləzzətlə yeyirlər. Aranlılar əgər gilas ilə ağızlarını dada gətirirlərsə, meyvəni onlar dağda dəyişirlər.

Dərələrdə qalan qar əriyir və onun süzülən suyu üzbaşının tozu ilə aşağıya doğru meyl edir. Tezliklə, çox tezliklə uca dağların çəmənləri baş qaldıran və yırğalanan yaşıl otlarla bürünür. Bax, onda qəribə nağılvari xalı ilə rəngarəng hala düşür: Min cür gözəl gül açmış çobanyastığı, ağ və bənövşəyi böyük titrəmərcan, qırmızı və sarı andız, müxtəlif cür zəngçiçəyi, utancaq yaddaşçiçəyi, süsən, sarı, mavi, qırmızımtıl peyğəmbərçiçəyi, sarı cınqıldaotu, zirə, xımı; Qoyun və mal-qara üçün arzu olunan ağ və qırmızı yonca, yonca, dağ xaşası, yumaq otu, qırtıc, çəmən pişikquyruğu və sair və ilaxır.

Ot ayı (iyun) üçün kombayn və taxılın alınması üçün işləyən traktorlar artıq yaxşıca hazırlanıb, çünki aranda iyun ayındaca demək olar ki, hər yerdə zəmi biçilir.

Silosun basırılması da başlayır. Erkən olaraq biçilmiş sahəyə (arpa və buğda) xüsusən suvarılan yerlərə qarğıdalı, günəbaxan, noxud, soya, qarabaşaq və sair səpilir.

Suptropik bitkilərin yayıldığı rayonlarda həqiqi əzmkarlıqdır. Çay plantasiyalarında çay yarpağı yığılır, toxalanır və ya kultivatoru cərgələr arası ilə keçirirlər. Xəstəliklərə və ziyanvericilərə qarşı mübarizə aparılır. Əlalxüsus, yalançı çanaqlı yastıcalar ilə xəstələnmiş bitkinin fumiqasiyası aparılır.

Üzüm bağlarında da böyük işlər gedir. İkinci və üçüncü dəfə mis kuporusu mayesi ilə dərmanlanmalı və kükürd ilə püskürdülməlidir. Üzüm bağında üçüncü dəfə kultivasiya işi aparılmalı, toxalanmalı, təmizlənməli və o, şölə saçmalıdır.

Meyvə bağlarında erkən barı da götürürlər. Gilas, gilənar, tut, qarağat, faraş şaftalı, alça, turş alça və sair. Bağlarda bolluca bar gətirmiş meyvə ağaclarının (alma, armud, şaftalı) budaqlarının altına dirəklər qoyurlar ki, budaqları qırılmasın.

Qarğıdalı, günəbaxan və başqa toxalanmalı olan bitkilərin ikinci dəfə toxalanması başa çatır, üçüncü toxalanma və kultivasiya başlayır. Üçüncü dəfə toxalanmış qarğıdalı birə-iki bar verir. Çuğundur sahəsində də işlər aparılır.

Tərəvəz bitkilərinin ilk məhsulunun da yığımı başlayır. Təzə xiyar və faraş pomidor artıq süfrəni bəzəyir. Çox yerdə sarımsaq, soğan çıxarılıb.

İşlər vüsət alıb, ürək də sevinir, məhsulun bol olacağı görünür və ondan qulluq əksik olmamalıdır.

**Niko Ketsxoveli,**

**Tərcümə etdi: *Mirzə Məmmədoğlu.***

*T Ə D B İ R*

## "ÇÖRƏYİ VER ÇÖRƏKÇİYƏ" BU DEMƏKMİŞ...

Məktəblərimizdə fənlərin tədrisindən başqa, güya "ikinci dərəcəli fənlər " də vardır ki, onların tədrisində ya qeyri - ixtisasçı, ya da ixtisasçı olub, ixtisasmarağı olmayan müəllimlərin ixtiyarına veriblər. Əslində Mən və Cəmiyyət, Musiqi, Rəsm, İbtidai təbiət tanışlığı o qədər əhatəli dərslər olmalıdır ki, tək bununla müəllimlərin düzgün təbliği ilə uşaqlarda hərtərəfli səviyyə yaratmaq olar. İnsanlığın təcəssümü musiqidən, rəsmdən, cəmiyyətdə fəaliyyətdən başlamırmı? Şagirdlərdə sağlam ruh yaratmaqla sağlam cəmiyyətdə sağlam VƏTƏNDAŞ yetişdirmək olar. İki ildir ki, Marneuli rayonu, Əmrah Aslanov adına Təzəkənd bir saylı məktəbə rəhbərlik edən Tofiq Əkbərovun fəaliyyəti mənim diqqətimdən kənar deyil. Təhsilin hər sahəsində bir fərqlilik onun sayəsində Əzizkənd şagirdlərindən yan keçmir. Bu böyük bir fərqlilikdir. Tofiq müəllim məktəbinə yeni rəsm müəllimi seçərkən də səhv etmədi. O, həm



fəal müəllim, həm də şagirdləri üçün bir yenilikçi seçdi. Gürcüstanın və Azərbaycanın müstəqilliyinin növbəti ildönümündə Tofiq müəllimin dəstəyi ilə Xəyalə müəllimin təşkil etdiyi "İki qonşu ölkənin rəngləri" adlandırdıqları kompozisiya çox yaddaqalan və maraqlı oldu. Rəsm müəllimi Xəyalə Mustafayevanın öz şagirdlərinin iştirakı ilə hazırladığı layihə ilk olaraq hər iki ölkənin himni ilə başladı. Musiqi sədaları altında şagirdlərin 30-a qədər rəsm işləri nümayiş olundu. Şagirdlərin ifasında gürcü və Azərbaycan rəqsləri, şeirlər, mahnılar ifa olundu. Sonda isə hər iki xalqın milli yeməklərindən ibarət fürşet təqdim olundu. Müəllim qabiliyyəti, rəhbər seçiminin düzgünlüyü günün yekununda şagirdlərin məsum çöhrəsində Xoşbəxtliyi əks etdirirdi. Öz adıma Tofiq müəllimə təşəkkür edirəm ki, məktəbində tədbirlər silsiləsinin fəaliyyətini gözəl işıqlandırır.

Nümunəvi rəhbər kimi bütün müəllim və şagirdlər adından sizə minnətdarlığımı bildirirəm. YORULMAYASIZ!

**Esmira Ələkbərli**

*P o e z i y a*

*1 İYUN UŞAQLARIN BEYNƏLXALQ MÜDAFİƏSİ GÜNÜDÜR*

## BALALARA HƏDİYYƏ

### *Qaranquş*

Obadan köçürdü qış,
Qayıdırdı qaranquş.
Yolda
Qaranquşla qış,
Birdən qarşılaşdılar.
Qollarını çırmayıb,
Möhkəmcə tutaşdılar.
Qaranquş
Qalib çıxdı
Bu gün yaz döyüşündə.
Ancaq qışın qarından
Qaldı onun döşündə...

### *Bayram tonqalında*

Balaca Aylin deyir:
– Uşaqlar, dünən axşam
Mən bayram tonqalından,
On kərə tullanmışam.
Hamı gülüşür ona:
– Qorxmurdunmu yanarsan...
Çox balacasan hələ,
Get böyü...tullanarsan!..
Qız deyir:
– Görərdiniz,
Olsaydınız yaxında.
Tonqaldan tullanırdım,
Atamın qucağında!..

### *Quruyan ağac*

Bağçada bir ağacı,
Almişdıq biz dövrəyə.
Bilmirdik ki,
Bu ağac
Niyə quruyub, niyə?!
Onu vaxtlı-vaxtında
Suvarmışdıq biz axı.
Hətta unutmamışdıq,
Dibini yumşaltmağı.
Bağçada bu ağaca
Çəkmişdik hər cür qayğı.
İndi yoxuydu onun
Bir dənə də yarpağı.
Kəsəndən sonra bildik,
Ağacı nə qurutmuş...
Onu qurudan demə,
Gövdəsindəki

### *Qara küçüyümüz*

Küçüyümüz var bizim,
Qaradı, qapqaradı.
Elə buna görə də,
"Kömür" qoyulub adı...
Haçankı kömürlükdə,
Gedib oynayır Kömür;
Uzaqdan ha baxsaq da,
Kömürlükdə görükmür...

### *Quşların yelləncəyi*

Ağacdan kəndir asıb,
Qurmuşam bir yelləncək...
Bu yelləncəyim mənim,
Elə qəşəngdir, qəşəng.
Yelləndiyimi görüb,
Quşlar verir səs-səsə.
Mənim yellənməyimdən,
Onlar gəlir həvəsə...

Bağda yelləncək qurmaq,
Quşlara nə gərəkdir.
Nazik-nazik hər budaq...
Onlara yelləncəkdir,

Quşlar cərgəyə durub,
Gör necə də şənlənir.
Bağda mənimlə birgə,
Onlar da hey yellənir.

### *Anası yanındadır*

Mələk səslənir: "mə... mə!..",
Susur, mələmir quzu.
Quzunun bu susmağı,
Bərk hirsləndirir qızı:
Deyir:
– Baba, bu quzu
Sözə əməl eləmir.
Nə qədər səslənirəm,
Mələmir ki, mələmir!
Baba gülümsəyərək,
Cavab verir:
– Qadası,
Quzu nəyə mələsin,
Yanındadır anası!



***Ələsgər ƏLİOĞLU***

### Ürəyim

Aman ver həyatdan alım kamımı
Sıxma, darıxdırma məni, ürəyim!
Necə də zülümmüş dərd əhlı olmaq,
Salır qara saça dəni, ürəyim!

Vüqarlı qartalam qanadı sınmış,
Könlü döyünsə də, bəxti dayanmış,
Yandırdın, odladın sən dili yanmış,
Gətirdin başıma çəni, ürəyim!

Güvəndim gücümə, əl atdım göyə,
Ay təki, gün təki görünüm deyə,
Bəs niyə yan keçdi taleyim, niyə?
Dözəmməm böyüklən, geni, ürəyim!

### Ana

Kiminin qiyməti qızıl qədərdir,
Sən isə gövhərsən, bahasan, ana.
Balalar böyütdüm qocaldım, deyə,
Gəncliyə hələlik son qoyma, ana.

Nə ki, yaşın azdır, cavansan hələ,
Ta ki, düşməyibdir dən qara telə,
Ömrün baharını gəl atma yelə,
Özünü hər şeydən baha san, ana.

Bu dünya dediyin bir qilü-qaldır,
Elə bil gözəlin alnında xaldır,
Hər sözün mənimçün xana mahaldır,
Dünyasan Məsura bəlkə sən, ana.

**Müslüm Mehdili,**
**Bolnisi, Kvemo - Bolnisi kəndi.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




### 30 may

•1631 — Avropanın ilk müasir standartlara uyğun fransız "La Gazette" qəzeti Parisdə fəaliyyətə başlayıb.

•1871 — Fransa-Prussiya müharibəsində Fransanın məğlubiyyəti nəticəsində baş vermiş inqilabla hakimiyyətə gələn Paris Kommunası süqut edib.

•1913 — Birinci Balkan müharibəsini bitirən böyük dövlətlərin iştirakı ilə London müqaviləsi imzalanıb. Həmin müqavilə əsasında, Osmanlı İmperiyası Balkan yarımadasındakı bütün torpaqlarını itirib – Makedoniya və Frakiya Yunanıstan, Serbiya və Bolqarıstan arasında bölünüb, Albaniya isə müstəqil dövlət olub.

**•1936 — Slava Metreveli, gürcü futbolçu, anadan olub.**

•ABŞ-də Xatirə Günü qeyd edilir. Bu gün vətəni uğrunda mübarizədə həlak olmuş hərbçi kişi və qadınların xatirəsi yad edilir, onların fədakarlığı ehtiramla anılır.

### 31 may

. •1223 —İndiki Ukrayna ərazisində Kalka döyüşü baş verib. Döyüşdə Çingizxanın məşhur generalları Cebe və Subedeyin başçılıq etdiyi monqol ordusu birləşmiş rus-qıpçaq ordusunu məğlub edib.

**•1815—Napoleonun süqutundan sonra böyük Avropa dövlətlərinin təşkil etdiyi Vyana Konqressinin qərarı ilə Hollandiya və ya başqa adı ilə Birləşmiş Niderland Krallığı yaradılıb.**

•1879 — Berlində dünyanın ilk elektrik dəmir yolu açılıb və "Siemens" şirkətinin qurucusu alman mühəndis Verner fon Siemens tərəfindən dizayn edilmiş ilk elektrik qatarı nümayiş etdirilib.

•1891 — Vladivostokda Trans-Sibir dəmir yolunun təntənəli təməli qoyulub.

•1911 — İngilis transatlantik layneri "Titanik" suya salınıb.

•BMT tərəfindən Ümumdünya Tütünlə Mübarizə Günü seçilib.

### 1 iyun

•1862 — Amerika vətəndaş müharibəsi çərçivəsində Abraham Linkoln hökuməti ölkədə köləliyi qadağan edib.

•2009 — Fransız havayollarına aid A330 təyyarəsi Atlantik okeanında qəzaya uğrayıb. Qəza nəticəsində 228 nəfər həlak olub. Qəza Fransa aviasiya tarixində ən böyük hadisə kimi qəbul edilib.

•BMT tərəfindən Ümumdünya Valideynlər Günü təyin edilib.

• Uşaqların Beynəlxalq Müdafiəsi Günü.

### 2 iyun

•455 — Geiserikin başçılıq etdiyi şimali Afrikada krallıq quran alman əsilli vandallar Romanı döyüşsüz işğal ediblər və sonra iki həftə şəhəri qarət etdiblər. Qeyd edək ki, "vandalizm" termini bu hadisə ilə bağlıdır.

•2003—Avropa Marsa ilk missiyasını başlayıb. Avropa Kosmik Agentliyinin Mars Ekspressi Qazaxıstanın Baykonur kosmodromundan orbitə çıxıb.

•2008 —Yamaykalı Useyn Bolt Nyu-Yorkda keçirilən Reebok Qran Prisində 100 metr məsafəyə qaçışda 9,72 saniyə ilə yeni dünya rekordu qoyub.

### 3 iyun

•1856 — Vasil Barnov, gürcü yazıçı, anadan olub.

**•1963 — Nazim Hikmət, türk şair, vəfat edib.**

•1970 — Hindistan-Amerika bioloqu Har Qobind Xorana ilk süni geni sintez edib.

•1971 — SSRİ-nin Baltik gəmiqayırma zavodunda Arktika nüvə buzqıran gəmisi inşa olunub.

•2018-ci ildə BMT tərəfindən Ümumdünya Velosiped Günü təyin edilib. BMT -nin qətnaməsində "iki əsrdir isti-fadə olunan və sadə, ucuz, etibarlı, ekoloji cəhətdən təmiz və məqbul nəqliyyat növü olan velosipedin unikallığı, uzun tarixi və çoxfunksiyalılığı" qeyd edilib.

### 4 iyun

•1878 — 1877-1878 rus-türk müharibəsində məğlub olan, Balkanlarda və Anadoluda birçox ərazilərini itirən Osmanlı İmperiyası və Böyük Britaniya arasında Kipr Müqaviləsi imzalanıb. Müqavilə əsasında, Böyük Britaniya Osmanlını ruslardan qorumaq qarşılığında Kipri əldə edib.

•1918 — Gürcüstan Demokratik Respublikası ilə Osmanlı İmperiyası arasında iki dövlətin sərhədlərini müəyyənləşdirən Batumi müqaviləsi imzalanıb.

### 5 iyun

•1849—Danimarka konstitusiya monarxiyasına çevrilib.

•1915—Danimarkada qadınlara səsvermə hüququ verilib.

•1977 — İlk fərdi kompüter Apple II satışa çıxarılıb.

• BMT (UNEP) 1972-ci ildə 5 iyunu Ümumdünya Ətraf Mühit Günü təyin edib.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## SLAVA METREVELİ



***Məşhur gürcü futbolçu Slava Metreveli 1936-cı ildə Soçi şəhərində anadan olub.*** Futbol oynamağa 15 yaşından başlayıb. Gənc futbolçu "Torpedo" futbol klubu tərəfindən Volqa regionuna göndərilib. Qısa müddətdən sonra Slava Metreveli Moskvanın "Torpedo"suna keçib. Valentin İvanov, Eduard Streltsov, Valeri Voronin, Boris Batanov və başqalarının dəstəyi ilə Slava SSRİ çempionatının qızıl və iki gümüş medalını, eləcə də kubokunu qazanıb.

1963-cü ildə Tbilisi "Dinamo"sunun üzvü olub. "Dinamo"dakı ikinci mövsümündə Slava Metreveli Gürcüstan futbolu üçün tarixi matçın iştirakçısı olub və klub ilk dəfə SSRİ çempionatının qızıl medallarını qazanıb. 1964-cü ildə Gürcüstanın ən yaxşı idmançısı adlanıb. 1966-cı ildə Gürcüstan İdman Jurnalistləri Federasiyası respublikanın ən yaxşı idmançısını müəyyən etmək üçün ənənəvi Yeni il sorğusu təşkil ediblər. Sorğunun nəticələrinə görə, ən yaxşı futbolçuların onluğuna yalnız Slava Metreveli düşüb. 1968-ci ildə Tbilisi "Dinamo" stadionunun radio redaksiyasında 1921-ci ildən 1968-ci ilə qədər gürcü futbolçularının simvolik komandasını müəyyən etmək üçün müsabiqə anketi elan edilib. Radio redaksiyasına 780 müsabiqə məktubu daxil olub. Daxil olan məktublar əsasında Slava Metreveli 732 səslə yuxarıda adı çəkilən simvolik komandaya daxil edilib.

Slava Metreveli SSRİ yığması tərkibində Avropa Kubokunu qazanıb, iki dünya və Avropa çempionatlarında iştirak edib, "Dinamo"nun tərkibində iki bürünc medal qazanıb.

Metreveli istər doğma klubda, istərsə də milli komandada texnikasına, sürətinə, qol vurma qabiliyyətinə əsaslanan yüksək məharəti ilə seçilib. SSRİ komandası üçün qələbə ilə nəticələnən Cənubi Amerika turundan sonra, sözügedən regionun mətbuatı Slava Metreveli ilə maraqlanıb. Tur çərçivəsində Metreveli argentinalılara qarşı o qədər yaxşı oynayıb ki, ən məşhur klublar onu almaq üçün külli miqdarda pul xərcləməyə hazır olublar.

İdman karyerasını başa vurduqdan sonra Slava Metreveli Tbilisi "Dinamo"sunda məşqçi kimi çalışıb. Yüksək idman nailiyyətlərinə görə digər təltif və mükafatlarla yanaşı, SSRİ-nin əməkdar ustası və Gürcüstanın əməkdar məşqçisi adına layiq görülüb, 1996-cı ildə isə ölkə qarşısında xüsusi xidmətlərinə görə hökumətin qərarı ilə "Şərəf" ordeni ilə təltif edilib.

Slava Metreveli 1998-ci ildə Tbilisidə vəfat edib. Tbilisidə onun adına küçə var.

## NAZİM HİKMƏT



***Nazim Hikmət 20 yanvar 1902-ci ildə Osmanlı İmperiyasının Salonik şəhərində anadan olub.*** Atası Hikmət Bəy Osmanlı İmperiyasının Xarici İşlər Nazirliyində vəzifədə olub. Nazimin anası, Osmanlı generalı Ənvər Cəlaləddin Paşanın qızı Cəlil Xanım rəssam idi. Nazim ibtidai təhsilini İstanbulun Qöztəpə qəsəbəsində yerləşən Daşməktəbdə alıb, daha sonra Bəyoğlunda yerləşən Qalatasaray Litseyinə daxil olub. İlk şeiri olan "Fəryad-i Vətən"i 1913-cü ildə yazıb.

1918-ci ildə Nazim Hikmət Hərbi Dəniz Akademiyasını bitirib və bir müddət Osmanlı donanmasının ən mühüm hərbi gəmilərindən olan "Hamidiyyə" kreyserində zabit olub, lakin 1919-cu ildə plevrit xəstəliyinə tutulub və bir il sonra, 1920-ci ildə sağlamlıq vəziyyəti səbəbilə hərbi xidmətdən azad edilib. 1921-ci ildə Türkiyənin İstiklal müharibəsinə qoşulub.

Həmin il Nazım Hikmət, Rusiyada baş verən inqilab proseslərinə heyran olduğuna görə, Sovet Rusiyasına köçüb. 1922-1924-cü illərdə Moskvanın Şərq Zəhmətkeşləri Kommunist Universitetində təhsil alıb. 1924-cü ildə Moskvada Nazim Hikmətin türk kommunist lider Mustafa Sübhinin ölümünə həsr olunmuş "28 Yanvar" (türkcə 28 Kanunisani) adlı ilk şeir toplusu nəşr olunub. Həmin il Nazim Hikmət Tükiyəyə qayıdıb və inqilabi "Oraq-çəkic" qəzetində, "Aydınlıq" jurnalında Lenin ideyalarını tərənnüm edən əsərlərlə çıxış edib. 1925-ci ildə Türkiyə hökuməti "Aydınlıq" jurnalını bağlayıb, əməkdaşlarını isə həbs edib. Nazim Hikmət İzmirə qaçıb. Həmin ilin sentyabrında SSRİ-yə qayıdıb. Orada 1927-ci ilin martında bağlanan eksperimental teatr studiyasının yaradılmasında iştirak edib. 1928-ci ildə Türkiyəyə qayıdıb və 8 aylığına həbs edilib. Azadlığa çıxandan sonra gündəlik "Axşam" qəzetində şeirlərini, romanlarını, hekayələrini, məqalələrini, esselərini və pyeslərini dərc edib. 1929-cu ildə onun "835 sətir", "Mona Liza və Si Ya-u" adlı şeir topluları nəşr olunub. 1951-ci ildə Nazim Hikmət ikinci vətəninə çevirilmiş SSRİ-yə qayıdıb və ömrünün sonunadək orada yaşayıb. 1952-ci ildə "Türkiyədə", 1955-ci ildə "Qərib adam", 1956-cı ildə "İvan İvanoviç vardımı, yoxdumu", 1960-cı ildə "Domokl qılıncı" və s. pyeslərini, şeir və poemalarını, poeziyaya və dramaturgiyaya dair məqalələrini yazıb.

Nazim Hikmət 3 iyun 1963-cü ildə Moskvada vəfat edib.

## HOLLANDİYA




Hollandiya və ya rəsmi adı ilə Niderland Krallığı qərbi Avropada yerləşir. Şərqdə Almaniya, cənubda isə Belçika ilə həmsərhəddir. Qərbdə Şimal dənizinə çıxışı var. Hollandiyanın tərkibinə Karib dənizində yerləşən və xüsusi statusu olan Aruba, Kyurasao və Sint-Marten adaları da daxildir. Ölkənin rəsmi paytaxtı Amsterdam şəhəridir, lakin kral iqamətgahı, parlament və hökumət, eləcə də xarici ölkə səfirliklərinin böyük hissəsi Haaqa şəhərində yerləşir. Böyük və əhəmiyyətli şəhərləri Rotterdam, Utrext və Eyndxovendir. Ölkə əhalisinin sayı 17 973 700 nəfərdir. Rəsmi dili alman dil qrupuna mənsub Niderland dilidir.

**Tarixi:** Qədimdə Hollandiya ərazisində müxtəlif alman və kelt qəbilələri yaşayıb. Roma İmperiyası Hollandiya ərazisinin cənubunu işğal edərək, Belçika və sonra Aşağı Germaniya əyalətlərinə daxil edib. Orta əsrlərdə Hollandiya Alman Müqəddəs Roma İmperiyasının tərkibində olub. XVI əsrdə ölkənin böyük hissəsi İspaniya krallığı tərəfindən idarə edilib. 1566-cı ildə İspaniya idarəçiliyinə qarşı Niderland İnqilabı kimi bilinən üsyan başlayıb. Nəticədə Hollandiya İspaniyadan ayrılaraq Birləşmiş Əyalətlər Respublikasını yaradıb. Yeni dövlət müstəmləkə siyasəti aparmağa başlayıb və Amerika, Afrika və Asiya qitələrindəki əraziləri işğal edib. Fransız inqilabı və Napoleon Bonapart dövründə ölkə fransızlar tərəfindən işğal edilib. Napoleonun süqutundan sonra 1815-ci ildə Birləşmiş Niderland Krallığı yaradılıb.

Hollandiya Birinci Dünya müharibəsində bitərəf olub. İkinci Dünya müharibəsi zamanı, 15 may 1940-cı ildə ölkə nasist Almaniyası tərəfindən işğal edilib. Alman işğalı 1945-ci ildə ölkə ərazisinin qərb müttəfiqləri tərəfindən azad edilənə qədər davam edib.

**Coğrafiyası:** Hollandiya ərazisində Reyn, Meuse və Şeldt çaylarının mənsəbləri böyük delta əmələ gətirir. Qərbi Friz adaları ilə kontinental Hollandiya arasında Vaddenz boğazının cənub hissəsi yerləşir. Hollandiyada bir neçə göl var, onlardan ən böyüyü Eyselmer göludür.

**İqtisadiyyatı:** Hollandiya iqtisadi və sənaye baxımından inkişaf etmiş ölkədir. Ölkədə maşınqayırma, elektronika, neft-kimya, təyyarə sənayeləri var. Amsterdamda almaz da emal edilir. Hollandiyada Royal Dutch Shell, Unilever və Royal Philips Electronics kimi transmilli və Avropa şirkətlərinin baş qərargahı və istehsal müəssisələri yerləşir. ÜDM-in 73 faizini xidmət sektoru, 24,5 faizini sənaye və tikinti, 2,5 faizini kənd təsərrüfatı və balıqçılıq təşkil edir. Əsas idxal məhsulları neft, avtomobil, dəmir və polad, geyim, əlvan metallar, qida məhsulları, müxtəlif nəqliyyat avadanlıqları, rezindir. Əsas ixrac məhsulları kimya məhsulları, ət, istixana tərəvəzləri, gül məhsulları, təbii qaz, metal məmulatlarıdır. Ölkənin əsas ticarət tərəfdaşları Almaniya, Belçika, Böyük Britaniya, Fransadır.

Dövlət quruluşu və siyasəti: Hollandiya konstitusional monarxiyadır. Hollandiya kralı rəsmi olaraq dövlət başçısıdır, lakin səlahiyyətləri nazirlər kabinetinə verir. Kralın dövlət başçısı kimi bir çox funksiyalarına hökumətin gələn il üçün planlarının təqdim edildiyi illik xüsusi nitq də daxildir. Parlament iki palatadan ibarətdir: birinci (75 yer) və ikinci (150 yer). Birinci palata dolayı yolla əyalət parlamentləri tərəfindən seçilir. Əsas gücə malik olan ikinci palata isə ümumi birbaşa səsvermə yolu ilə 4 il müddətinə seçilir.

Hollandiya Avropa Birliyinin və NATO blokunun üzvüdür.

**Mədəniyyəti**: Hollandiya İeronim Bosx, Vinsent Van Qoq və Pit Mondrian kimi tanınmış rəssamların, Spinoza və Rotterdamlı Erazm kimi məşhur filosofların vətənidir. Məşhur holland kinorejissorları arasında Jos Stelling və Paul Verhoeven var. Aktyorlar arasında ən məşhuru Rutger Hauer, aktrisalar arasında isə Silvia Kristel və Famke Janssendir.

Hollandiyada çoxlu muzeylər var. Hollandiyalı rəssamların görkəmli sənət əsərləri Amsterdamdakı Rijksmuseum və Rembrandt House, Rotterdamdakı Boijmans van Beuningen Muzeyi və Haaqadakı Mauritshuis muzeyində nümayiş etdirilir.

**Təhsil və elm:** Hollandiyada uşaqlar 4 yaşında məktəbə daxil olur, 12 yaşında ibtidai təhsili başa vururlar. Təhsilin birinci mərhələsini başa vurduqdan sonra məktəblilər bir növ, imtahandan keçirlər. Onun nəticələrinə əsasən, məktəbli ümumi hazırlıq və ya universitetə qədər təhsil proqramında təhsilini davam etdirir. Proqramların müddəti 4 ildən 6 ilə qədərdir.

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
" ს ა ქ ა რ თ ვ ე ლ ო "
" S A K A R T V E L O "
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



YUBİLEY

# TALAVERİ (FAXRALI) İCTİMAİ MƏKTƏBİNDƏ XALQ ŞAİRİ ZƏLİMXAN YAQUBUN 75 İLLİK YUBİLEYİ QEYD OLUNUB



***Bolnisi bələdiyyəsinin Talaveri (Faxralı) kəndinin 1 nömrəli ictimai məktəbində Azərbaycanın görkəmli söz ustadı, Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 75 illiyi münasibətilə yubiley tədbiri keçirilib.***

Tədbirdə yerli ziyalılar, müəllimlər, şagirdlər və məktəbin pedaqoji kollektivi iştirak ediblər.

Tədbirin əvvəlində Zəlimxan Yaqubun həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş etdirilib, daha sonra məktəbin şagirdləri şairin yaddaşlarda iz qoyan poetik nümunələrini səsləndiriblər. Tədbir zamanı aşıq sənətinə xüsusi yer ayrılıb, Zəlimxan Yaqubun poeziyasından rişələnən aşıq havaları səsləndirilib.

Məktəbin müəllimləri çıxış edərək Zəlimxan Yaqubun yaradıcılıq yolu, onun milli ruhla yoğrulmuş əsərlərinin ədəbi mühitə və gənc nəslin tərbiyəsinə verdiyi töhfələr barədə ətraflı məlumat veriblər. Onlar şairin sözündəki hikmətin, vətənə, xalqa olan sevgisinin gənclər üçün örnək olduğunu vurğulayıblar.

Çıxış edən ziyalılar və tədbir iştirakçıları yubiley mərasiminin yüksək səviyyədə təşkili üçün məktəb rəhbərliyinə və tədbirin ərsəyə gəlməsində əməyi olan bütün kollektiv üzvlərinə təşəkkür ediblər. Onlar belə tədbirlərin milli-mənəvi dəyərlərin təbliği və qorunması baxımından mühüm əhəmiyyət daşıdığını bildiriblər.

Qeyd edək ki, Zəlimxan Yaqub yalnız Azərbaycan ədəbiyyatında deyil, ümumturk dünyasında da böyük nüfuza malik şairlərdən biri kimi tanınır.

MARAQLIDIR

# QARANLIQDA GÖRMƏYƏ İMKAN VERƏN KONTAKT LİNZALAR HAZIRLANIB

***Çinin Elm və Texnologiya Universitetinin alimləri qaranlıqda görməyə imkan verən kontakt linzalar hazırlayıblar.***



Bu barədə "Cell" jurnalında məqalə dərc olunub.

Bildirilib ki, yeni nəsil kontakt linzalar görünməyən infraqırmızı işığı görünən işığa çevirir. Bu da insan gözünün tanıdığı spektrdə görüntü yaratmaqla qaranlıqda görməyə imkan verir.

Ən maraqlı cəhətlərdən biri odur ki, linzalar göz qapaqları bağlı olduqda da işləyir. İnfraqırmızı işıq qapaqlardan keçərək daha dəqiq görüntü yaradır. Bu, infraqırmızı işığın görünən işıqdan fərqli olaraq, göz qapağından daha yaxşı keçməsi və xarici işıqdan yaranan maneələri azaltması ilə izah olunur.

Linzalar əvvəlcə siçanlar üzərində sınaqdan keçirilib. Siçanlar infraqırmızı işığın olduğu sahələrdən qaçaraq qaranlıq bölgələrə üstünlük veriblər. Bu, onların infraqırmızı işığı görə bildiklərini sübut edib. Daha sonra linzalar 10 könüllü üzərində yoxlanılıb. Onlar infraqırmızı siqnalları ayırd edə və infraqırmızı LED-lərin haradan işıq saçdığını müəyyən edə biliblər.

Hazırda bu linzalar ətraf mühiti ətraflı görməyə imkan vermir. Bu məhdudiyyətin səbəbi linzaların işığı yaymasıdır. Problemi aradan qaldırmaq üçün alimlər oxşar texnologiya əsasında işləyən eynək prototipi hazırlayıblar. Bu eynəklərlə istifadəçilər daha dəqiq formaları seçə biliblər.

BAŞSAĞLIĞI



"Gürcüstan"nın kollektivi, qəzetin Dmanisi Bələdiyyəsi üzrə müxbiri İslam Məmmədova əzizi

**Akif Abdulla oğlu ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**



"Gürcüstan" qəzetinin kollektivi Marneuli Bələdiyyəsinin Aşağı Qullar kənd sakinləri Əmiraslan, Şəmistan və Tahir Əlizamanlı qardaşlarına bacısı

**Lətifə Hüseyn qızı ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# ƏMƏKLƏ DEYİL, OYUNLA BÖYÜMƏLİDİRLƏR




**Foto E.Şahvələdindir.**

BİR AZ DA GÜLƏK



Qərar çıxır ki, "Bəs, kimin 5 uşağı varsa, avtomobil veriləcək".

Mamed arvadına deyir ki, ay Gülgəz, bu dörd uşaqdan başqa bir uşaq da ayrı qadından varımdı. Qorxumdan sənə deməmişdim. İcazə ver, gedim gətirim, maşınımız olsun.

Arvad razılaşır.

Səhəri günü Mamed uşaq qoltuğunda evə gələndə görür ki, evdəki uşaqlar yoxdur. Arvad tək -tənha oturub.

—Ay, arvad, hanı uşaqlar?

—Soruşma, a kişi. Bu qərarı çıxaranın evi yıxılsın. Hərəsini öz atası gəlib apardı.

* * *

Atla eşşək uşaqlıq dostu idi. Elə olur ki, uzun illər görüşə bilmirlər. Yenidən görüşəndə isə hər ikisi qocalıb əldən düşmüş olur. At eşşəyin qocalmasını üzünə vurmur. Amma eşşək başlayır ki, bu nədir? Qocalmısan, belin bükülüb, tükün seyrəlib, dişlərin tökülüb. Sonra soruşur ki, bəs mən necə? Çoxmu dəyişmişəm?

At deyir:

—Sən heç dəyişməmisən. Eşşək idin, elə eşşək də qalmısan.

**Şamil Ziyadəliyev.**

İDMAN

# ŞAHMAT YARIŞI

UID-in Gürcüstan Gənclər Qolu tərəfindən təşkil olunan 3-cü Şahmat turniri baş tutub. Turnirdə ümumilikdə 100 iştirakçı mübarizə aparıb. İlk gün 74 gənc yarışa qatılıb, final günündə isə 30 iştirakçı əsl rəqabət şəraitində güclərini sınadı.

Turnir, gənclər arasında strateji düşüncə və zehni inkişafı təşviq etmək məqsədi ilə UID-in Gürcüstan Mərkəzində keçirildi. Tədbirdə Türkiyənin Tbilisidəki səfirliyinin üçüncü katibi Uğur Tahnal, GMİ-nin Şərqi Gürcüstan üzrə Müftisi Etibar Eminov və digər qonaqlar iştirak ediblər. Final mərhələsindən sonra UID-in Gürcüstan sədri Yusuf Taşkıran iştirakçılara təşəkkür nitqi ilə çıxış edib.

**Qiqa Qoderdzişvili, Saba Arabidze** və **Aleksandre Kartleişvili** yarışın qalibləri elan olunublar.

Qaliblərə müvafiq olaraq 1000, 500 və 300 lari məbləğində mükafatlar təqdim olunub.

İkinci mərhələyə keçən bütün iştirakçılara sertifikatlar və sponsorlar tərəfindən hədiyyələr verilib. LC Waikiki, Yunus Əmrə İnstitutu və Türk Hava Yollarının dəstəyi ilə xüsusi hədiyyə çantaları təqdim edilib.

TƏBİİ FƏLAKƏT

# KAXETİDƏ YAĞAN GÜCLÜ DOLU CİDDİ FƏSADLAR TÖRƏDİB

***May ayının 25-də günorta saatlarında Kaxeti bölgəsinə güclü dolu yağıb.***



Dolu Axmeta və Telavi bələdiyyələrinin bir neçə kəndinə ciddi zərər vurub.

Məlumata əsasən, ümumilikdə 7 kənddə təsərrüfat sahələrinə və yaşayış evlərinə ziyan dəyib.

Təbiət hadisəsi zamanı kənd sakinlərinə məxsus meyvə ağaclarına, üzüm bağlarına və digər bitkilərə ciddi ziyan dəydiyi bildirilir.

**Qəzetin bank hesabı**

**გაზეთის საბანკო ანგარიში**

**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**

**ანგ. № GE03LB0111185703773000**

**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.